

## *Şöhlət ABBAS*

### BƏNÖVŞƏ

Əyibsən boynunu niyə mənim tək,
Əyilmək yaraşmır düzə, bənövşə?!
Mənim sevincim tək ay ömrügödək,
Kim səni gətirdi gözə, bənövşə?

Məhəbbətlə keçən hər dəm gözəldir,
Səhərlər üstündə şəbnəm gözəldir.
Yoxsa ki çəkdiyin bu qəm gözəldir,
Açmaq istəmirsən bizə, bənövşə?

Ey çəmən-tablonun incə naxışı,
Qızların ismətli, məhzun baxışı,
Şöhlətin vəfalı, kövrək yoldaşı,
Gərəkdir dərd əhli dözə, bənövşə!

### DOSTUM

Bir də o dağlara düşərmi yolum? -
Cavabsız sualdır, gümandır, dostum.
Düşmən tapdağında qalırsa yurdun,
Bu utanc ölümdən yamandır, dostum.

Naşı tənə edə, yadlar sevinə,
Ölkəni talayan qurdlar sevinə,
Bir son olacaqmı tale səhvinə? -
Sualın cavabı uzandı, dostum.

Şöhlət, bizim nəsil gedəndən sonra,
Ruhlar lənətlənər bədəndən sonra.
Çoxları cibini güdəndən sonra,
Demək, şərəfsizlik qazandı, dostum...

### YA QİSMƏT!

At gərdişin ümmanına,
Üzə bilə, ya bilməyə.
Qoy taleyin gümanına,
Qarşı gələ, ya gəlməyə,
Arzu gül aça, ya qismət!

Xatirələr düzənlənə,
İlk məhəbbət təzələnə.
Ürək elə həmənkidir,
Saça dümağ qar ələnə,
İlham dil aça, ya qismət!

### YERİ GÖRÜNÜR

Tez-tez xatırlayıram
sevgi, məhəbbət ilə
mən o BÖYÜK İNSANI...

Ürəyi təmizdi bulaqlar kimi,
Təpədən dırnağa ziyalı idi.
Mərd idi - dediyi sözün hakimi,
Qızdan-gəlindən də həyalı idi.

Qənimət insandı Xanlar müəllim,
Darda qalanların köməyi idi.
Geniş ürəyiylə, şəxsiyyətiylə
Doğma el-obanın gərəyi idi.

Dəyişir təbiət, dəyişir zaman,
Gün günə calanır, ay ilə dönür.
Yenə yada düşür o BÖYÜK İNSAN,
Xanlar Məmmədovun yeri görünür.

### KÖNÜL

Yenə qəlbim qövr elədi,
Yada düşdü dağlar, könül.
Gərdiş mənə cövr elədi,
Geri dönməz çağlar, könül.

Ərtəpədən bulud aşar,
Həkəridə sellər coşar,
Kəklikləri qaqqıldaşar,
Bulaqları çağlar, könül.

Daha çıxmaz el yaylağa,
Yetən deyil əl yaylağa,
Şöhlət, di döz ayrılığa,
Viran qalıb bağlar, könül.

### RÜBAİLƏR

Zanan hər yaranı sağaldır, keçir,
Sanırsan ki, ömür nağıldır, keçir,
Döz hər çətinliyə, hər ayrılığa,
Desinlər filankəs oğuldur, keçir...

Süd kimi ağappaq, aydınlıq gecə,
Mənə öz qəlbini açdı gizlicə.
Həsrətin sonunda nəşə gözəlmiş,
Onun vüsalından məst oldum necə?!.

Bu hicran yükünü çəkə bilmirəm,
Qəlbim qəm əlindən bağlayıb vərəm.
Saqi, mey ver içim, dərdim azalsın,
Dərdim yüngül olsa, heç vaxt içmərəm.

Həyatımda ağrılarım, acılarım, əzabım var,
Xatirələr dünyasında neçə qəmli kitabım var.
Hey fırlanır, dönür zaman amansız bir cəllad kimi,
Cahan-böyük qumarxana, uduzulmuş hesabım var.

### TÖK

Atın qabağına bir az sür-sümük,
İtin qabağına saman tök, ot tök.
Zəlil et bir tikə çörək dərdiylə,
Sonra ziyalının başına od tök.

Yol ver, qol-qanad ver bicə-bədzata,
Vətəni, torpağı, anasın sata.
Şair peşman ola, küsə həyata,
Gədələr başına qızıl səp, ad tök.

Siçandan olanlar dağarcıq kəsər,
Yalançı igidlər dar vaxtı əsər,
Dünya, yaşamağa qoşar-tələsər,
Şöhlətin üstünə «aman» tök, «dad» tök.

### TALEYİMƏ BİR QIZ ÇIXACAQ

Hələ fikirlərin dərinliyində
O xoşbəxt saatdan, gündən xəbərsiz,
Hələ ümidlərin sərinliyində
Bir vüsal uyuyur məndən xəbərsiz,-
Mənim taleyimə bir qız çıxacaq.

Bəlkə gülüşləri ürəklər çalan
Bir şıltaq, qayğısız, «kəpənək» gözəl,
Ya da hər addımda xəyala dalan
Bir şair duyğulu, bir kövrək gözəl,-
Mənim taleyimə bir qız çıxacaq.

Bir yaşıl dərədə, bulaq başında,
Palıd kölgəsində xumarlananda,
Ya da bər-bəzəkli, qəşəng maşında
Asfaltda yollarım hamarlananda
Mənim taleyimə bir qız çıxacaq.

Bəlkə də ömrümün gəlhagəlində,
Bəlkə sıldırımlı yoxuşlarında...
Bilmirəm dünyanın hansı elində...
İnam süzüləcək baxışlarından,-
Mənim taleyimə bir qız çıxacaq.

Qəlbimi durulda biləcəyəmmi
Ömrümə gecikmiş yağışlar ilə?
Mən onu yarıda biləcəyəmmi
Şirincə sözlərlə, baxışlar ilə?-
Mənim taleyimə bir qız çıxacaq.

### DÜNYADA

Hər gözəlin bir ağ atlı igidi,
Sevən qəlbin gümanı var dünyada.
Bəxtin yolu gah açıq, gah bürküdü,
Yaxşısı var, yamanı var dünyada.

Xəyalında sınaqları adlayar,
Duyğuları ürəyini odlayar,
Dözə bilməz, səbrin buzu çatlayar,
Umacağı, umanı var dünyada.

Duyğularım gözəlliklə yoğrulub,
Axıb-axıb, durulanıb-durulub;
Desələr ki, Şöhlət yenə vurulub,
Sevgi adlı ümmanı var dünyada...

### OXŞASIN

Əllərim istəyir narla oynasın.
Nar əlimi, əlim narı oxşasın!
Bar budaqla, budaq barla oynasın,
Mizrab telə dəysin, tarı oxşasın!

Əssin dağlarımdan səhər yelləri,
Dalğalatsın, sığallasın telləri.
İnsaf elə, şirin-şirin dillərin
Qəlbimdəki intizarı oxşasın!

Dünya - səhnə, ömür - tamaşa, gözəl,
Sevincim, kədərim baş-başa, gözəl,
Oxşasan, Şöhləti sən oxşa, gözəl,
İnsafdırmı qoca qarı oxşasın?!

### LÖVHƏ

Verdiyim bir dəstə çiçək əlində
Gəlinlik donunda nazlanıb çıxar.
O qızın insafı çiçəklənəndə
Bənövşə boynunu qaldırıb baxar,-
Bu bahar bir parça ümid olmuşam.

Xəfif axşam mehi. Budaqlar əsir.
Kölgələr rəqs edir sakit, asta, şən.
Dağ çayı harasa yaman tələsir,
Bir dağ yamacıdır, bir günəş, bir mən.

Xəfif axşam mehi. Şirin arzular.
Vüsala can atan kövrək bir ürək.
Bəlkə də o qızın sevgilisi var,
Sevgimi heç bir kəs bilməsin gərək!

Xəfif axşam mehi. Yarpaq nəğməsi.
Hər duyğu bir günü gətirir yada.
Onu düşünürəm, amma görəsən
Məni də düşünən varmı dünyada?

### QALDI

Getdi qara saçlar, getdi cavanlıq,
Dərdlərim üst-üstə calandı qaldı.
Bu gündən, sabahdan bir nigaranlıq,
Xəyal bir nöqtədə dolandı qaldı.

Başımın üstündə bir qara bulud,
Üfüqdə ilğıma bənzədi ümid;
Bitmədi qovhaqov, qovğa, tuthatut,
Yurdum yağmalandı, talandı qaldı.

Cahillik, nadanlıq meydan suladı,
Savadsız məmurlar quyruq buladı;
Şöhlət, bu tükənməz necə bəladı,
Gözyaşı bulaqlar bulandı qaldı?!.

### QIZIN GÖZLƏRİ YOL ÇƏKİR

( nəğmə)

Gözləri yol çəkir-nəyi gözləyir,
O, bir xoş bəxti, taleyi gözləyir.
Qızın gözləri yol çəkir,
Qızın gözləri yol çəkir.

Ürəyi tər-təmiz, gül ləçəyi tək,
Sevgisi-ləçəkdə şehdi bu qızın.
Bu bahar günləri sınandı bəlkə
Dözümü, ilqarı, əhdi bu qızın.
Qızın gözləri yol çəkir,
Qızın gözləri yol çəkir.

Gözləri-səmavi, saçı-şəlalə,
Baxışı-dünyaya sorğu-sualdır.
Dişləri-süd kimi, yanağı-lalə,
Görürsən ki, tez-tez xəyala daldı.
Qızın gözləri yol çəkir,
Qızın gözləri yol çəkir.

Gözləri yol çəkir-nəyi gözləyir,
O, bir xoş bəxti, taleyi gözləyir.
Qızın gözləri yol çəkir,
Qızın gözləri yol çəkir.

* * *

Həqiqət acı olur,
Özü də düz gözlərin
içinə deyiləndə.
Kiçik bir titrəyişdən
nələr, nələr doğulur,
ürək min cür əzabdan
sürtülüb yeyiləndə.

Hərənin bir nəsibi,
hər kəsin öz qisməti;
Birini var qudurdur,
Bir başqasının isə
ehtiyacın əlindən
Tapdalanır mənliyi,
tapdalanır isməti.

Yanmaq olmasa əgər,
Yaşamağa nə var ki!
Gördüyünü dərk edib,
Duyduğunu düşünüb,
qanmaq olmasa əgər,
İnsan heç qocalar ki?!
Yaşamağa nə var ki!..

### DUYĞULAR

O qəlbində qızaran
Alovdumu, közdümü? -
Daha, daha dözməyib
Soyuqluqdan bezdimi?

Həsrət çiçək-çiçəkdi,
Həsrət naxış-naxışdı.
Həsrət, qəmi göyərdən
Bir çisəngi yağışdı.

O buludlar son kərə
Gözlərini sıxır bax.
Onların arxasından
Yenə günəş çıxır, ah!..

Həsrətin çiçəkləri
Saralacaq, solacaq,
Bir vaxt könül verdiyim
O qız mənim olacaq.

### GÖZƏLLİYİNDƏN

Qara gözlərilə fəxr edən gözəl,
İndi nələr qalıb gözəlliyindən?
Qəlbi həsrətindən dağ-dağ dağlanıb,
Şair mələr qalıb gözəlliyindən.

Səni də aldatdı dünyanın varı,
Can atdın, yürüdün daş-qaşa sarı;
Açmamış soldurdun gül arzuları,
Solmuş güllər qalıb gözəlliyindən.

Hər gün ömrümüzdən qopan qəlpələr
Şöhlətin saçına gümüş səpələr.
Ruhuma can verən xoş xatirələr,
Şirin dillər qalıb gözəlliyindən.

### BİR QIZ KEÇƏR...

Asta addımlarını,
Nazlı addımlarını,
Qadınlığın ülvi, saf
Xislətindən yaranan
Duzlu addımlarını
Od həvəslə,
Birəm-birəm, zərrə-zərrə,
Nöqtə-nöqtə hərisliklə
gözlərimə yığdığım,
Neçə acı xatirə,
Şirin xəyallarını
Ürəyimə sıxdığım
Bir qız keçər.

Ağrı köçər...
Əsəblərim
gizli-gizli gizildəyər.
Duruxaram, tutularam,
sıxılaram.
Gözlərimdən yaş qurtarıb,
Yox, yox, yox, yox, ağlamaram,
Bir təbəssüm əvəzinə
Qəh-qəh çəkib gülərəm də,
Dolanaram dəli kimi,
Görən deyər arsız keçər.
Matdım-matdım durub baxar,
Həsrət-həsrət boylanaram.
Heç özüm də bilmərəm ki,
Axı niyə boylanaram?
Keçmişə, ya gələcəyə,
Geriyə, ya irəliyə boylanaram?

Kölgə kimi arxasınca
gedər fikrim,
hər anını güdər fikrim.
Neçə ümid axıb keçər,
Gümanlara baş vuraram.
Hərdən coşqun, hərdən aram
Duyğularım gah qatarla,
Gah tək keçər, yalqız keçər.

Bir qız keçər,
Kaman inlər sazımdakı
sarı simin arxasınca.
Bi qız keçər,
Boylanaram ilk eşqimin
arxasınca.

### YA QİSMƏT!

At gərdişin ümmanına,
Üzə bilə, ya bilməyə.
Qoy taleyin gümanına,
Qarşı gələ, ya gəlməyə,
Arzu gül aça, ya qismət!

Xatirələr düzənlənə,
İlk məhəbbət təzələnə.
Ürək elə həminkidir,
Saça dümağ qar ələnə,
İlham dil aça, ya qismət!